# Əsgərim

Bir dastan yazdırır, şərəfli dastan,
Düşmənin bağrını dələn əsgərim
Qurtarır ələmdən, qurtarır yasdan,
Vətəni baş tacı bilən əsgərim.
Baş qoyduğu hər daş ona vətəndi,
Savaş meydanında ər tək bitəndi,
Aslan ürəklidir, min cana təndi,
Ölümün üzünə gülən əsgərim.
Sarılıb bayrağa, sədləri aşar,
Keçilməz dağları, hədləri aşar,
Dəli sellər kimi bəndləri aşar,
Kafirin izini silən əsgərim.
Səni haraylayır qayalar, daşlar,
Nə vaxtdı çağırır kəsilən başlar,
Diz çökdür xaini, bitsin təlaşlar,
Olsun yağı sənin kölən, əsgərim.
Vaxtdır, qisasını, alasan gərək,
Zəfər nəğməsini, çalasan gərək,
Zalımı taxtından salasan gərək,
Müjdəsi Şuşadan gələn əsgərim.

**Nurəddin İSMAYIL,**
**Bakı şəhəri.**

# Biz qorxmaz xalqıq

Tarix boyu Azərbaycan öz riyakar qonşusunu çox yaxşı tanıyıb.Mənfur düşmənimiz artıq dünya ölkələrinin də gözündə nüfuzunu itirmiş bir vəziyyətdədir. Hər bir vəziyyətdə acizlik nümunəsi olan erməni terrorçuları cəbhədə ordumuzun qüdrətinə tab gətirə bilmir, cılızlaşaraq mülki əhalini hədəfə alır.

22 oktyabr səhər saat 9:00-da cəbhə bölgəsindən 150 km uzaqlıqda yerləşən Qəbələ şəhərinə raket atılması onların terrorçu dövlət olduğunu dünyaya bir daha sübut etdi.

Qəbələ turizm şəhəridir, hər il yüzlərlə xarici qonaq qarşılayan, müxtəlif beynəlxalq tədbirlərin, festivalların keçirildiyi bu şəhər artıq dünyaca məşhurdur. Dünyanın diqqət mərkəzinə çevrilmiş Azərbaycan xəbərlərini izləyən dünya ölkələri məncə bu terrorizmə müsbət yanaşmayacaq. Qəbələ cəbhə zonasından uzaq olsa da, bütün ölkəmiz hərbi vəziyyət şəraitində öz işinə, gündəlik həyatına davam edir. Cənab Ali Baş Komandanımız İlham Əliyevə və yenilməz ordumuza güvənirik. Tezliklə Prezidentimizin qələbə müjdəsini eşidəcəyik. Düşmən bilməlidir ki, ordumuz yenilməzdir və bu ordudakı igidlərimiz Azətbaycanın hər bölgəsindən könüllü olaraq döyüşə yollanıb, igidlərini döyüş meydanına yola salan xalq düşmənin acizliklə xalqı hədəfə almasından əsla qorxmur. Yaşasın doğma Azərbaycan! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**Aynurə QƏDİROVA,**
**şəhər 3 saylı məktəbin müəllimi.**

# Şanlı tarixi yaşayırıq

Tarixi və önəmli anların şahidi olan bizlər özümüz də bilmədən tarixin bir parçası oluruq. Nə qürurverici, şərəfli və mötəbər bir hisdir qalib ordunun arxasında dayanmaq, ruhuyla, canıyla, qəlbiylə, dualarıyla dəstək olmaq. Arxa cəbhənin yorulmaq bilməyən igid, qoçaq, mübariz əsgərləriyik biz əslində. Nə böyük ürəyin var sənin, bircə balanın arxasınca su atan qəhrəman ana, nə əzəmətli qəlbin var sənin, canından can olan qardaşını ürəklə yolçu edən cəsur bacı, varlığını döyüşə göndərən vəfalı yoldaş, sevgili...

Sən nə böyük, nə əzəmətli bir xalqsan ulu xalqım, canından can ayrılacaq deyə qorxmursan, torpağı ən əzizindən əziz bilib evinin çırağını, bircə balanı, qardaşını, atanı qurban deyirsən vətəninə...

Əslində sənin olanın, sənin olmalı olanın yolunda canından, qanından, malından, mülkündən, hər şeyindən bir anda keçə bilən böyük Millətim, can Azərbaycanım!

Başına bombalar, mərmilər yağan şəhərlərin sakinləri müharibə bitməsin, son kəndimizəcən alınsın deyən qorxmaz millətim! Bu ruh , bu düşüncə, bu əzm səndə varkən dünyanın hansı ordusu sənə qalib gələ bilər ki...

Səfərbərlik sözünü eşidib sel olub küçələrə axan millət, son qəpiyini, kəfən pulunu əsgər balalara göndərən fədakar ana, çəkməsi cırıq amma ruhu zəngin, son qəpiyi əsgərinə göndərən qoca baba! Siz var olduqca bu millətin qəlbi, ruhu bu cür sevgi və mərhəmətlə aşıb- daşdıqca, kürəyimiz yerə gəlməz, düşmən bizə heç nə edə bilməz...

Dilindən, dinindən asılı olmayaraq bu vətəni özünə ev bilən, el bilən insanlar varkən bizə ancaq və ancaq qələbə yaraşır. Tariximiz şanlıdır, qələbələrlə doludur. Vətəni canı bilən, canından artıq sevən qəhrəmanlarımız olub bizim! Biz Koroğlunun, Şah İsmayılın nəvələriyik, türk oğlu türkük. Bozqurd soyu, dünyaya hökm edən sərkərdələrin nəsliyik! Biz at üstündə doğulmuşuq, döyüşdə bərkiyib döyüşdə ölmüşük. Canımızla, qanımızla vətənə bağlılığımız da damarımızda axan qandandır. Çox şanslı bir nəsilik biz, gələcək nəsillərin tarix kitabından oxuyacağını qəlbimizlə, ruhumuzla yaşayırıq biz...Füzuli, Cəbrayıl,- Zəngilan, Qubadlı şeir kimi səslənir...tamamlanacaq qafiyələrin son misrasında Kəlbəcər olsun, inşəaAllah. Şərəfli və şanlı tariximizin ən sevimli səhifəsi olsun bu il! Bəzilərinin ikrahla, tənəylə yad etdiyi 2020, nə gözəl bir ilsən sən, çətini, ağrısı, acısı, göz yaşı, xəstəliyi ilə bərabər elə böyük bir sevinc gətirdin ki bizə, tarixdə heç bir zaman unudulmayacaqsan. Siz də unudulmayacaqsınız arxa cəbhənin müzəffər ordusu, böyük şanlı ordu və onun Ali Baş Komandanı! Tarix yazanlar, tarixə yazılanlar var olun, çox yaşayın. Bizim üçün, hər qarış torpağımız üçün canından keçənlər, şəhid olan qardaşlarımız, yeriniz behişt olsun! Loxmasını əsgərinə göndərmək istəyən, ehtiyac olmadığı halda son qəpiyini bağışlamağa hazır olan geniş ürəkli böyük xalqım! Qələbə xəbərlərinin davamı arzusu və diləyi ilə "Qarabağ Azərbaycandır!"

**Elza KƏRİMOVA,**
**Qəbələ şəhəri.**

# Yeni pul nişanları










Dövriyyədə olan milli pul nişanlarının tədavülə buraxılmasından 14 il keçir və bu dövrdə pul nişanlarımız öz estetik görünüşünə, konseptual mövzusuna və mühafizə sistemlərinə görə özünəməxsusluğu ilə seçilib.

AMB də beynəlxalq təcrübəni nəzərə alaraq, hökumətin qərarları əsasında pul nişanları sahəsində ən son innovasiyaların, nano və mikro texnologiyaların tətbiqi ilə milli pul nişanlarımızın müasirləşdirilməsinə başlayıb və bu çərçivədə 2018-2019-cu illərdə 200 manatlıq yeni pul nişanını tədavülə buraxıb, 10 manatlıq pul nişanının isə mühafizə sistemləri təkmilləşdirib.

Artıq 1, 5 və 50 manatlıq pul nişanlarının mühafizə sistemləri və dizaynı mövcud konsepsiya çərçivəsində ən son texnologiya və innovasiyalar tətbiq edilməklə yenilənib. Yenilənmiş dizayna və mütərəqqi mühafizə sistemlərinə malik yeni pul nişanlarının 1 yanvar 2021-ci il tarixindən tədavülə buraxılması nəzərdə tutulub. Onlar hazırda tədavüldə olan 1, 5 və 50 manatlıq pul nişanları ilə paralel dövriyyədə olacaq və tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcək. Bununla da yenilənmiş pul nişanlarımız özünün bədii estetik görünüşünə və mühafizə səviyyəsinə görə beynəlxalq təcrübədə ən təhlükəsiz banknotlar sinfində qalmaqda davam edəcək.




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

**2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


# Hesab açılmışdır

***Qəbələ şəhər sakini Səfərli Mehriban Səməd qızının adına onun müalicəsi ilə əlaqədar hesab açılmışdır. İş adamlarından və xeyriyyəçilərdən ona kömək etmələri xahiş olunur.***

| | |
|---|---|
| **CIF** | 1630349 |
| **Valyuta:** | AZN |
| **Benefisiarın Bankı:** | Kapital Bank ASC Qəbələ rayon filialı |
| **Filialın Kodu:** | 200491 |
| **VÖEN:** | 9900003611 |
| **SWIFT kod:** | AIIBAZ2X |
| **Benefisiarın adı:** | Mehriban Səfərli Səməd qızı |
| **Benefisiarın hesabı:** | AZ82AIIB410100C9442539475149 |
| **Müxbir bank:** | |
| **Müxbir hesab:** | AZ37NABZ01350100000000001944 |
| **Ünvan:** | Qəbələ şəhəri, İ.Qutqaşınlı küçəsi 50 |
| **Tel:** | (02420) 5-02-18 |
| **E-mail:** | index: AZ 1014 |

## ALLAH RƏHMƏT ELƏSİN!

«Qəbələ» qəzeti redaksiyasının kollektivi şəhər 1 saylı tam orta məktəbin sabiq müəllimi Simuzər İbrahimovaya qızı

**Solmaz xanımın**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ rayon Vəndam bələdiyyəsinin kollektivi bələdiyyə sədri Asif Haşımova anası

**Vəzifə xanımın**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56



Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1500*